**UOT** 343.712.1

**İlkin ƏLƏKBƏROV**
*Daxili İşlər Nazirliyinin Polis Akademiyası*
*Daxili işlər orqanlarının inzibati fəaliyyəti kafedrasının müəllimi,*
*polis baş leytenantı*
*email: ilkinalakbar14@bk.ru*
DOI: https://doi.org/https://doi.org/10.62130/WXTF9648

# YAŞAYIŞ SAHƏSİNƏ, HABELƏ BİNAYA, ANBARA VƏ YA BAŞQA SAXLANC YERLƏRİNƏ QANUNSUZ DAXİL OLMAQLA ÖZGƏ ƏMLAKINI QULDURLUQ YOLU İLƏ TALAMANIN CİNAYƏT-PROSESSUAL VƏ TƏCRÜBİ PROBLEMLƏRİ

**XÜLASƏ**

*Ümumiləşdirərək bildirmək istəyirəm ki, yaşayış sahəsinə, habelə saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə törədilən talama cinayətlərinin cinayət prosessual aspektlərini nəzərdən keçirərək ibtidai və məhkəmə istintaqı dövrlərində işin gedişatını ləngidən problemlər, həmin problemləri yaradan səbəb və şərait və onların aradan qaldırılması yolları bu məqalədə göstərilib. Bu məqalədə irəli sürülən fikirlər və həll yolları cinayət və cinayət-prosessual qanunvericiliyin, istintaq-məhkəmə təcrübəsinin təkmilləşdirilməsində istifadə oluna bilər.*

***Açar sözlər:*** *yaşayış sahəsi, saxlanc yeri, mənzil toxunulmazlığı, talama, silah, silah qismində istifadə edilən əşya, basqın, üzləşdirmə, şəxsin tanınması, sübutların qiymətləndirilməsi*

Azərbaycan Respublikası ərazisində hər bir şəxsin əmlakı, mülkiyyəti dövlət tərəfindən qorunur. Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla özgə əmlakını quldurluq yolu ilə talamanın cinayət və cinayət-prosessual hüquqi səciyyəsini nəzərdən keçirək. Qeyd edək ki, bu cinayətin ümumi, cinsi, növ obyektləri yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla özgə əmlakını oğurluq və soyğunçuluq yolu ilə talamanın müvafiq obyektləri ilə eynilik təşkil edir. Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla özgə əmlakını quldurluq yolu ilə talamanın cinsi obyekti vahid xalq təsərrüfatı kompleksi kimi ölkənin iqtisadiyyatının normal inkişafını və fəaliyyətini təmin edən ictimai münasibətlərdir. Həmin cinayətin növ obyekti mülkiyyətçinin öz mülkiyyətinə, habelə mülkiyyətçisi olmasa da, sərəncamvermə, idarəetmə hüququnda yaxud qanunda və ya hüquqi aktda nəzərdə tutulmuş digər əsasla malik olduğu əmlaka sahiblik, istifadə və sərəncam vermə üzrə hüquqlarının daxil olduğu mülkiyyət münasibətləridir.

Azərbaycan Respublikasında istintaq və məhkəmə təcrübəsində yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talama cinayətlərinin cinayət-prosessual hüquqi səciyyəsində əməlin barəsində icraat aparılan, istintaq orqanı tərəfindən təqsirləndirilən şəxs qismində tanınmış şəxs tərəfindən törədilməsi, həmin əməlin törədilməsi zamanı saxlanc yerlərinə daxil olarkən şəxs qabaqcadan başqa şəxslərlə əlbir olmub-olmaması, cinayətin təşkilatçısı, təhrikedicisi və kömək-

çisinin mövcud olub-olmaması, cinayətin törədilməsində silah və silah qismində istifadə edilən əşyalardan istifadə edilib-edilməməsi müəyyənləşdirilməlidir.

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla özgə əmlakını quldurluq yolu ilə talamanın bilavasitə obyekti də göstərilən münasibətlərdir. Bu, baxılan cinayətin bilavasitə əsas obyektidir. Həmçinin baxılan cinayətin iki əlavə bilavasitə obyekti vardır. Bunlar aşağıdakılardır:

1) zərərçəkənin həyatının təhlükəsizliyini və sağlamlığını təmin edən ictimai münasibətlər;

2) Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində təsbit edilmiş mənzil toxunulmazlığı hüququnu təmin edən ictimai münasibətlər (əməl yaşayış sahəsinə daxil olmaqla törədildikdə) [1].

Qeyd olunan əməl binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla törədildikdə bir əlavə bilavasitə obyekt mövcud olur ki, bu da zərərçəkənin həyatının təhlükəsizliyini və sağlamlığını təmin edən ictimai münasibətlərdir.

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla özgə əmlakını quldurluq yolu ilə talamanın predmeti özgə əmlakıdır. Belə əmlak mülki dövriyyədə olduqda, cinayət Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 181.2.3-cü maddəsi ilə tövsif edilir [2].

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talanan özgə əmlakı xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyalar və ya sənədlər olarsa, törədilən əməlin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 183-cü maddəsi ilə tövsif edilməsi zəruridir [2].

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talanan özgə əmlakı nüvə materialları və radioaktiv maddələr olarsa törədilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 227-ci maddəsi ilə tövsif edilir [2].

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talanan özgə əmlakı odlu silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular olarsa törədilən əməlin tövsifi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 232-ci maddəsində nəzərdə tutulur [2]. Sadalanan predmetlərin talanması əsasən ictimai təhlükəsizliyə qəsd edir.

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talanan özgə əmlakı narkotik vasitələr, psixotrop maddələr və ya prekursorlar olarsa törədilən əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 235-ci maddəsi ilə tövsif edilir [2]. Yuxarıda göstərilən iki halda olduğu kimi bu halda da cinayətin obyekti dəyişir. Baxılan cinayətin cins obyektini ictimai təhlükəsizliyi və ictimai qaydanı təmin edən ictimai münasibətlər, növ obyektini əhalinin sağlamlığını və ictimai əxlaqı qoruyan ictimai münasibətlər təşkil edir.

Bu halda baxılan cinayətin bilavaSitə obyekti aşağıdakılardan ibarət olur:

1) narkotik vasitələr, psixotrop maddələr və ya prekursorların qanuni dövriyyəsini nəzərdə tutan ictimai münasibətlər (əsas obyekt);

2) zərərçəkənin həyatının təhlükəsizliyini və sağlamlığını təmin edən ictimai münasibətlər (əlavə obyekt);

3) vətəndaşların mənzil toxunulmazlığı barədə konstitusion hüquqlarını təmin edən ictimai münasibətlər – cinayət yaşayış sahəsinə daxil olmaqla törədildikdə (əlavə obyekt).

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talamanın obyektiv cəhətinə nəzər salaq. Baxılan əməlin obyektiv cəhəti hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla və ya belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə bağlı basqında ifadə olunur. Buna qədər yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olma baş verir. Qanunsuz daxil olma cinayət törətmək məqsədilə gizli, açıq və ya aldatma yolu ilə həyata keçirilə bilər. Bu zaman qapılar və ya pəncərələr sındırıla bilər, qıfıllar və ya başqa qoruyucu vasitələr saxta açarla açıla bilər və s. Bundan başqa, daxil olma qapısı bağlı olmayan yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə sərbəst şəkildə girməklə də həyata keçirilə bilər. Həmçinin təqsirkar özü-

nü kommunal, məişət, poçt və ya tibb xidmətinin işçisi kimi qələmə verməklə də qeyd olunan yerlərə daxil ola bilər.

Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talamanın yüksək ictimai təhlükəliliyi əməl, yaşayış sahəsinə qanunsuz daxil olmaqla törədildikdə, təkcə onun törədilməsi üsulu ilə deyil, həm də baxılan əməlin eyni vaxtda üç bilavasitə obyektə qəsd etməsi ilə bağlıdır:

1) mülkiyyətçinin öz mülkiyyətinə, habelə mülkiyyətçisi olmasa da, sərəncamvermə, idarəetmə hüququnda yaxud qanunda və ya hüquqi aktda nəzərdə tutulmuş digər əsasla malik olduğu əmlaka sahiblik, istifadə və sərəncam vermə üzrə hüquqlarının daxil olduğu mülkiyyət münasibətləri;

2) zərərçəkənin həyatının təhlükəsizliyini və sağlamlığını təmin edən ictimai münasibətlər (əlavə obyekt);

3) vətəndaşların mənzil toxunulmazlığı barədə konstitusion hüquqlarını təmin edən ictimai münasibətlər – cinayət yaşayış sahəsinə daxil olmaqla törədildikdə (əlavə obyekt).

Qeyd edək ki, Azərbaycan Respublikasının CM-in 181.1-ci maddəsində "basqın", "hücum" və "zorakılıq" sözlərindən istifadə edilir [2]. Quldurluq vaxtı zorakılıq basqın anında, basqın başladıqdan sonra, həmçinin basqın başa çatdıqdan sonra tətbiq edilə bilər. Həmin anlayışları onların hüquqi əhəmiyyəti mövqeyindən fərqləndirmək praktik olaraq mümkün deyildir. Hətta basqının zorakılığın tətbiqi üçün real təhlükə yaratması anlayışına əsaslansaq zərərçəkənə zorakılığa məruz qalma təlqin edən hərəkət öz-özlüyündə psixi zorakılıqdır. Təqsirkarın sonradan zorakılıq tətbiq etmək niyyəti ilə edəcəyi, ancaq zərərçəkənə hələ zorakılıq təlqin etməyən hərəkəti basqın kimi qiymətləndirilə bilməz. Belə hərəkət yalnız quldurluğa hazırlığı təşkil edir. Basqının başlanğıcı, quldurluq tərkibində onun anlayışının mahiyyətinə görə, bir qayda olaraq, zaman etibarilə zorakılıqla yaxud zorakılıq hədəsi ilə üst-üstə düşür. Qeyd edək ki, "basqın", "hücum" və "zorakılıq" sözləri həm də eyni mənanı daşımırlar. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "basqın" sözünə "ansız hücum; qəfildən, gözlənmədən edilən hücum", habelə "talan, çapovulçuluq" kimi məna verilir. Basqın təqsirkarın zərərçəkən əleyhinə müəyyən bir şeyi ələ keçirmək, ziyan vurmaq və s. məqsədlə etdiyi sürətli kəskin hərəkəti ifadə edir.

Məhkəmə və istintaq təcrübəsində quldurluq yolu ilə törədilən cinayətlərdə adətən şəxs daxil olduğu saxlanc yerləri barəsində, oranın maddi durumu barəsində məlumatlı olur. İstintaq prosesində şəxsin həmin daxil olduğu yer barəsində olan məlumatı hansı mənbədən əldə etdiyi öyrənilməlidir. Ona verilən məlumatın sırf quldurluğun törədilməsi üçün qəsdli xarakter daşıyıb-daşımadığı istintaq prosesində öz əksini tapmalıdır.

Quldurluq formal tərkibli cinayət olduğundan həmin cinayət zamanı artıq həyat və sağlamlığa zərər vurulubsa paralel qaydada istintaq zamanı digər maddələrlə də tövsif ediləcəkdir. Zorakılıq təkcə əmlakın mülkiyyətçisinə və ya idarə etmə, sərəncamvermə və ya mühafizə etmə məqsədilə onun verildiyi şəxslərə qarşı deyil, həm də təsadüfən cinayətin törədilmə yerində olan və özgə əmlakının götürülməsinə mane olmağa cəhd edən kənar şəxslərə qarşı da tətbiq edilə bilər. Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talamanın obyektiv cəhətinin bir xüsusiyyəti də ondan ibarətdir ki, qanunverici bu cinayəti formal tərkibli cinayət hesab edir, yəni təqsirləndirilənin əmlakı götürməyə macal tapıb-tapmamasından asılı olmayaraq cinayət basqın anından başa çatmış sayılır.

Azərbaycan Respublikasının CPM-in 124-cü maddəsi sübutların anlayışı və növlərindən bəhs edir [3]. Həmin maddəyə əsasən quldurluq yolu ilə törədilən cinayətlərdə sübuta yetirilməlidir ki, əməl həqiqətən də basqın və zorakılıq yolu ilə törədilmişdirmi? Mövcud istintaq təcrübəsi göstərir ki, quldurluq iştirakçılıqla və ya əvvəlcədən əlbir olan bir qrup şəxs tərəfindən törədilir. Təbii ki, istintaq prosesində bir daha CPM-in 124-cü maddəsinə uyğun olaraq bu kimi şübhələr sübutlarla müəyyənləşdirilməli və möhkəmlədilməlidir. Belə ki burada zərərçəkmiş şəxsin izahatları, şahid ifadələri (əgər varsa), təqsirləndirilən ifadələri əsas götürülərək təhlil edilməlidir.

Quldurluq cinayətində iştirakçılığa və əvvəlcə-

dən əlbir olan bir qrup şəxs tərəfindən törədilməsinə əsaslı şübhələr varsa, Azərbaycan Respublikası CPM-in 235-ci maddəsinə uyğun olaraq ifadələrində ciddi ziddiyyətlər olduqda üzləşdirmə keçirilir [3]. Onlar arasında olan münasibət dəqiqləşdirilir və ardıcıl qaydada suallar verilir.

Saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə törədilən talama cinayətlərində iş üzrə şübhəli və ya təqsirləndirilən şəxs öz simasını gizlətmədən bu cinayəti törədibsə onun barəsində CPM-in 239-cu maddəsinə uyğun olaraq tanınma üçün təqdim etmə zərurəti yarandıqda şəxsin tanınması istintaq hərəkəti keçirilir [3]. Təbii ki, tanınma şərtlərinə uyğun olaraq tanıyana azı 3 nəfər xarici görünüşü ilə əhəmiyyətli dərəcədə fərqlənməyən başqa şəxslərlə təqdim edilir və şəxsə cərgədə istədiyi yerdə dayanmağı bildirir. İşin hallarına uyğun olaraq cinayət işinin aparılması istintaq hərəkətləri ilə qanunvericiliyin tələbləri nəzərə alınmaqla davam etdirilir.

Baxılan məsələnin həlli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 mart 2005-ci il tarixli 1 saylı "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" qərarında da öz əksini tapmışdır [4]. Belə ki, həmin qərarın 25-ci bəndinə görə, özgə əmlakını talamaq məqsədilə zərərçəkmişi köməksiz vəziyyətə salmaq üçün onun iradəsinə zidd, yaxud aldatma yolu ilə orqanizminə güclü təsiredici, zəhərli və ya bihuşedici vasitələr yeridilməsi quldurluq kimi tövsif edilməlidir. Həmin məqsədlə zərərçəkmişin orqanizminə onun həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan vasitələr, maddələr yeridilmişsə, o zaman əməl, nəticəsindən asılı olaraq, zor tətbiq etməklə törədilən soyğunçuluq kimi tövsif olunmalıdır. Qeyd edilən cinayətlər törədilərkən, tətbiq olunmuş vasitələrin, maddələrin təsirinin xüsusiyyəti və xarakteri, lazım gəldikdə, müvafiq mütəxəssis və ya ekspert vasitəsilə müəyyən oluna bilər.

Quldurluq zamanı psixi zorakılığın məcburi əlaməti zərərçəkənə qarşı yönəlmiş təhlükənin real olaraq həyata keçirilməsidir. Zərərçəkənin real qəbul etdiyi hədənin səmərəliliyi onun həyata keçirilməsi üçün zəruri olan obyektiv səbəblər olmadığı hallarda da azalmır. Bununla bağlı obyektiv olaraq həyata keçirilə bilməyən, ancaq zərərçəkənin həyata keçirilə bilən hesab etdiyi hədəsi də quldurluq tərkibini yaradır.

Təqsirkar zərərçəkəni tapançanın maketi və ya yalnız zahirən silaha oxşayan hər hansı predmetlə hədələdikdə hədə xəyali səciyyə daşıyır, çünki bu predmetlərdən istifadə edilməsi zərərçəkənin həyatı və ya sağlamlığı üçün real təhlükə doğura bilməz. Bununla belə, zərərçəkən təqsirləndirilən şəxsin əlində əsl silahın olduğunu hesab edib, xəyali hədəni real hədə kimi qəbul edərsə, belə hallar quldurluq kimi tövsif edilməlidir.

Bu cür hədənin quldurluq kimi qiymətləndirilməsi həm də onunla əsaslandırıla bilər ki, zərərçəkənin psixikasına silahın maketi və ya zahirən silaha oxşayan hər hansı predmetlə hədənin təsir dərəcəsi əsl silahla hədənin təsir dərəcəsinə bərabərdir. Deməli, həm silahın maketindən və ya zahirən silaha oxşayan hər hansı predmetdən istifadə edilməsi, həm də əsl silahdan istifadə edilməsi cinayətkar nəticənin əldə edilməsinə kömək edir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 mart 2005-ci il tarixli 1 saylı "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" qərarının 25-ci bəndinə görə, şəxs silahı yalnız nümayiş etdirmişsə və ya aşkar yararsız və ya doldurulmamış silahla zərərçəkmişin həyatı və ya sağlamlığı üçün təhlükəli olan xəsarət yetirmək niyyəti olmadan həmin predmetlərlə onu hədələmiş və ya silah tətbiq etmə görüntüsü yaratmışsa (məsələn, silah maketi, oyuncaq xəncər və s.), digər ağırlaşdırıcı hallar olmadıqda, işin konkret hallarından asılı olaraq, onun hərəkəti quldurluq kimi tövsif edilməlidir. Zərərçəkmiş silahın yararsız və ya doldurulmamış olmasını, yaxud da silah tətbiq etmə görüntüsü yaradılmasını başa düşmüşsə, dərk etmişsə, əməl soyğunçuluq kimi tövsif edilməlidir [4].

Quldurluq cinayəti zamanı şəxsin törətdiyi üsul istintaq prosesində önəmli detallardan biridir. Cinayətin aləti üçün ekspertiza təyin edilir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun B.Yusifovanın şikayəti üzrə 17 fevral 2006-cı il tarixli qərarına əsasən cinayət zamanı əldə edilən əşya və ya predmetin silah və ya silah qismində istifadə edilən əşya olduğu məsələsində müəyyən izahlar verilmişdir [6]. Eksperti-

za rəyindən asılı olaraq Cinayət Məcəlləsinin 228.4-cü maddəsinə uyğun olaraq barəsində əlavə cinayət işi açıla bilər [2].

Təhqiqat və məhkəmə orqanlarına cinayət törətməkdə təqsirləndirilən şəxsin hərəkətlərinin obyektiv səciyyəsini (cinayətin törədildiyi yeri və vaxtı, kömək göstərilmək imkanının olmaması və s.) hərtərəfli öyrənmək, bütün bu halların məcmusuna əsaslanaraq özgə əmlakını ələ keçirmək məqsədilə tətbiq edilən psixi zorakılığın xarakteri haqqında məsələni həll etmək lazımdır.

Təqsirləndirilən şəxs tərəfindən tətbiq edilən psixi zorakılığın həyat və ya sağlamlıq üçün təhlükəli zorakılıq hesab edilməsi üçün bu hədənin silah və ya onu əvəz edən predmetlərin nümayiş etdirilməsində ifadə edilməsi məcburi deyildir. Yalnız cinayətin törədildiyi şəraitin belə hədənin zərərçəkəndə təqsirləndirilənin ona divan tutmağa hazır olması barədə yəqinlik yaratdığını müəyyən etmək vacibdir. Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaqla quldurluq yolu ilə talama zamanı psixi zorakılıq zorlamaqla hədələmədə də ifadə oluna bilər. Belə hədə öz səmərəliliyinə görə sağlamlığa ağır zərər vurmaya bərabər tutula bilər. Belə ki, bu, zərərçəkənin psixikasına o dərəcədə güclü təsir edə bilər ki, tələb edilən əmlakı təqsirləndirilən şəxsə özü könüllü verə bilər.

Quldurluq cinayətinin praktikada formalaşan bir xüsusiyyəti də ondan ibarətdir ki, cinayətin törədilməsində əsaslı şübhələrlə təqsirləndirilən qismində tanınan şəxsin barəsində məhkəmələr tərəfindən CPM-in 157-ci maddəsinə uyğun olaraq həbs qətimkan tədbiri seçilir [3]. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 157.5-ci maddəsinin şərh olunmasına dair" 9 iyul 2010-cu il tarixli qərarına əsasən həbs qətimkan tədbirinin seçilməsinə əsaslı hallar olmalıdır [5]. Bu hallardan biri kimi əgər şəxs barəsində həbs qətimkan tədbiri deyil, digər qətimkan tədbiri seçilərsə şəxs rahatlıqla cinayətin izlərini və cinayət işində maddi sübut qismində istifadə edilə bilən predmetləri itirə bilər. Buna misal olaraq cinayət zamanı silah qismində istifadə edilən predmetin və alətin izlərinin itirilməsini göstərmək olar. İkinci hal kimi cinayəti görüb, eşidən və ya cinayət barədə məlumatlı olan şəxslərin, yəni şahidlərə təsir etmək imkanının olmasıdır. Şahidlərə hər hansı psixi, fiziki və ya başqa təsir göstərməklə onun cinayət işində düzgün iştirakına maneə yarada bilər. Üçüncü hal kimi isə paralel qaydada cinayətdə zərər çəkən şəxslərin həyatına yenidən zərər vura bilər, həmçinin istintaq prosesindən yayına bilər və qaçıb gizlənərək istintaqın gedişini yubada bilər.

Yaşayış sahəsinə, saxlanc yerlərinə quldurluq yolu ilə törədilən talama cinayətlərinin hər bir cinayət əməlində olduğu kimi fərqli, spesifik xarakterə malikdir. İstər maddi, istərsə də prosessual hüquq normalarına uyğun olaraq əməlin təhlili onu göstərir ki, bu cinayət zamanı əldə edilən əmlaka, vurulan ziyana, sağlamlığa yetirilən xəsarətə, iştirakçılıqla törədilməsinə, hansı üsul və alətlərdən istifadə edilərək törədilməsinə uyğun olaraq əməl başqa maddələrlə tövsif edilməsi ilə yanaşı, işin hallarından asılı olaraq cinayətin şəffaf araşdırılması, sübutların düzgün toplanılması və hər kəsin təqsirinə uyğun olaraq əməlin düzgün qiymətləndirilməsi olduqca vacibdir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Hüquq Yayın Evi, 2023
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2023
3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2023
4. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 mart 2005-ci il tarixli 1 saylı "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" qərarı
5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 157.5-ci maddəsinin şərh olunmasına dair" 9 iyul 2010-cu il tarixli Qərarı
6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun B.Yusifovanın şikayəti üzrə 17 fevral 2006-cı il tarixli Qərarı

**Илькин АЛЕКБЕРОВ**

## УГОЛОВНО-ПРОЦЕССУАЛЬНЫЕ И ЭМПИРИЧЕСКИЕ ПРОБЛЕМЫ ГРАБЕЖА ЧУЖОГО ИМУЩЕСТВА ПУТЕМ НЕЗАКОННОГО ПРОНИКНОВЕНИЯ В ЖИЛОЕ ПОМЕЩЕНИЕ, А ТАКЖЕ В ЗДАНИЕ, СКЛАД ИЛИ ИНЫЕ МЕСТА ХРАНЕНИЯ

### РЕЗЮМЕ

Подводя итог, хотелось бы констатировать, что, рассматривая уголовно-процессуальные аспекты разбойных преступлений, совершенных путем разбоя, в том числе незаконного проникновения в жилые помещения и складские помещения, выявлены проблемы, замедляющие ход дела в периоды предварительного и судебного следствия, Причины и условия, создавшие эти проблемы, а также пути их устранения показаны в данной статье. Представленные в статье идеи и решения могут быть использованы для совершенствования уголовного и уголовно-процессуального законодательства, следственно-судебной практики.

***Ключевые слова:*** Жилой район, место хранения, жилищный иммунитет, грабеж, оружие, предмет используемый в качестве оружия, рейд, лицом к лицу, распознавание человека, оценка доказательств

**Ilkin ALEKBEROV**

## CRIMINAL-PROCEDURAL AND EMPIRICAL PROBLEMS OF ROBBERY OF SOMEONE ELSE'S PROPERTY BY ILLEGAL ENTRY INTO A RESIDENTIAL PREMISES, AS WELL AS INTO A BUILDING, WAREHOUSE OR OTHER PLACES OF STORAGE

### SUMMARY

Summarizing, I would like to state that by reviewing the criminal procedural aspects of robbery crimes committed by robbery, including illegal entry into residential areas and storage areas, the problems that slow down the progress of the case during the preliminary and court investigation periods, the causes and conditions that created those problems, and the ways to eliminate them are shown in this article. The ideas and solutions presented in this article can be used to improve criminal and criminal-procedural legislation, investigative-court practice.

***Key words:*** residential area, storage place, housing immunity, larceny, weapon, an item used as a weapon, raid, facing, person recognition, evaluation of evidence